# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# “NAXÇIVAN” UNİVERSİTETİ
# FƏNN SİLLABUSU

Təsdiq edirəm: ___________ N.M.Məmmədova

Tarix: __07__ sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | *S/F (Azərbaycan dili orfoep. və orfoq. əsas.)* 5 kredit |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və Ədəbiyyat TM və Metodologiyası |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Magistratura |
| | **Kurs** | I |
| | **Semestr** | I |
| | **Təlimçi** | Arifə Əziz qızı Zeynalova |
| | **e-mail** | arifezeynalova9@gmail.com |
| | **Telefon** | 050-543-59-75 |
| | **Dərs günləri və saatları** | I gün III saat (m), II gün II saat alt (s) |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Seçmə | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. “Maarif” nəşriyyatı, 1988.<br>2. Axundov A. Məktəblinin orfoqrafıya lüğəti. “Təhsil”, 2004.<br>3. A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019<br>4. Azərbaycan dilindən şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi normaları (metodik tövsiyə). Bakı, 1985<br>5. Azərbaycan dilinin orfoqrafıya lüğəti. “Lider nəşriyyatı”, 2004.<br>6. Azərbaycan dilinin orfoqrafıya lüğəti. Bakı, 1975<br>7. Azərbaycan dilinin orfoqrafıya lüğəti. Bakı, 2013<br>8. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 1975<br>9. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. “Maarif” nəşriyyatı, 1988.<br>10. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). “Maarif” nəşriyyatı, 1972.<br>11. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları. “Maarif”, 1974<br>12. Əfəndizadə Ə. Orfoqrafıya - orfoepiya lüğəti (kompleks lüğət). 2011.<br>13. Əfəndizadə Ə. Orta məktəbdə imla. “Maarif” nəşriyyatı, 1983.<br>14. Əfəndizadə Ə. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları. “Azərtədrisnəşr”, 1964.<br>15. Quliyeva A., Soltanov M. Məktəblinin orfoqrafıya -orfoepiya - qrammatika lüğəti. Bakı, 2011.<br>16. Müasir Azərbaycan dili. I hissə. “Elm” nəşriyyatı, 1978.<br>17. Orfoqrafıya-orfoepiya lüğəti. (“Abituriyent” jurnalının xüsusi buraxılışı), 2012<br>18. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə). “Maarif” nəşriyyatı, 1977.<br>19. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə). “Maarif’” nəşriyyatı, 1977 | |

<table>
<tr><td>İstifadə ediləcək web səhifələr</td><td colspan="2">1. http://lib.bbu.edu.az/files/book/1057.pdf<br>2.https://www.repk.az/uploads/books/24.pdf<br>3.http://anl.az/el/Kitab/2017/07/cd/Azf-296978.pdf</td></tr>
<tr><td>Fənnin xülasəsi</td><td colspan="2">Ali təhsil müəssisələrinin filologiya fakültələrinin magistrləri üçün nəzərdə tutulan fənnin əsas obyekti seçmə fənn kimi orfoqrafiya və orfoepiya təliminin əsaslarını öyrətməyi nəzərdə tutur. Kursun predmeti orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi prosesidir. Məlumdur ki, orta məktəbin Azərbaycan dili kursunda orfoqrafik və orfoepik bilik, bacarıq və vərdişlərin verilməsi əsas məqsədlərdən biridir</td></tr>
<tr><td>Fənnin məqsədləri</td><td colspan="2">Proqram orfoqrafiya və orfoepiya təliminin əsaslarını magistrlərə öyrətmək üçün aşağıdakı məqsəd və vəzifələri nəzərdə tutur:<br>- Orfoqrafiya təlimi üzrə indiyə qədər aparılmış tədqiqat işlərini öyrənmək;<br>- Orfoepiya təlimi üzrə indiyə qədər aparılmış tədqiqat işlərini öyrənmək;<br>- Mövcud Azərbaycan dili proqram və dərsliklərinin problemlə bağlı imkanlarını müəyyən etmək;<br>- Mövcud orfoqrafiya və orfoepiya lüğətlərini, məktəblilər üçün tərtib olunmuş orfoqrafiya və orfoepiya lüğətlərini tədqiq və təhlil etmək;<br>- Orfoqrafiya və orfoepiya təliminin üsul, yol və prinsiplərini öyrənmək<br>Orfoqrafik bilik, bacarıq və vərdişlərin aşılanmasında Azərbaycan dili kursunun digər bölmələrinin, habelə orta məktəblərdə tədris olunan digər fənlərin yerini aşkara çıxarmaq.</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="2">Magistrlərin orfoqrafiya və orfoepiya təlimində təkcə mövcud biliklərə yiyələnməsi yox, onların özlərinin bu sahə üzrə tədqiqat apara bilmələri üçün imkanların yaradılması.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir.</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirəsi aparılır.</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilir.</td></tr>
<tr><td>Simulyasiya</td><td>Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir</td></tr>
<tr><td>Layihə</td><td>Tələbələrə dərsə aid fərdi laborator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir</td></tr>
<tr><td>Digər</td><td>Tədris prosesində fərdiləşdirilmiş (oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir</td></tr>
<tr><td rowspan="4">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
</table>

| | |
|---|---|
| | - Tələbələrin sərbəst işinə görə maksimum bal — 10 bal (10%)<br>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal — 30 bal (30%)<br>**Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.**<br>2. İmtahan nəticələrinə görə maksimum bal — 50 bal (50%)<br>3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla”<br>**Cəmi:** — **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Tapşırıq olaraq tələbələrə aşağıda qeyd olunmuş sərbəst mövzular verilir və semestr ərzində qiymətləndirilir.<br>**Sərbəst iş mövzuları:**<br>1. Azərbaycan dili orfoqrafiyasının elmi-nəzəri əsasları<br>2. Abreviaturalarin yazılışı məsələləri<br>3. Orfoqrafiyanın spesifik cəhətləri (xüsusiyyətləri) və bunların təlimdə nəzərə alınması<br>4. Orta məktəb kursunda orfoqrafiya təliminin məzmunu, məqsəd və vəzifələri<br>5. Orfoqrafıyanın düzgün tələffüzlə qarşılıqlı təliminin əsasları<br>6. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları<br>7. Orfoqrafiyanın qrammatika ilə əlaqəli tədrisi<br>8. Orfoqrafiya təlimində istifadə edilən iş növləri, üsul və vasitələr<br>9. Azərbaycan dilinin orfoepiyası, onun formalaşması və inkişaf tarixi<br>10. Orfoepik tələffüz<br>11. Tələffüz vasitələri<br>12. Tələffüz qaydaları (qısaltma sözlərin tələffüzü)<br>13. Ədəbi tələffüzün mənbələri<br>**14.** İxtisar edilən sözlərin və qısaltmaların orfoqrafiyası. Sözün sətirdən-sətrə keçirilməsi ilə bağlı orfoqrafik qaydalar. Orfoepiya **ilə orfoqrafiyanın əlaqəsi**<br>15. İxtisar və qısaltmaların sətirdən – sətrə keçirilməsi məsələsi<br><br>**Təqdimat:** Slayd formasında hazırlanaraq sunulan təqdimatlar “GÖRÜRƏM, EŞİDİRƏM VƏ YADDA SAXLAYIRAM” prinsipinə əsasən qiymətləndirilir. |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız |

| | |
|---|---|
| | istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz. Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır. Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

**Mühazirə**

| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | 19.09.22 | Mövzu №1<br>"Azərbaycan dili orfoepiya və orfoqrafiyasının əsasları" fənninin mövzusu, məqsədi, vəzifə və əlaqələri<br>**Qısa icmalı:**<br>Orfoqrafiya və onun obyekti, məqsədi və vəzifələri. Yazının sabitləşməsində orfoqrafiyanın rolu. Orfoqrafiya və qrafika. Orfoqrafiyanın əsas əlamətləri: aydınlıq və düzgünlük, məcburilik, vahidlik, sabitlik. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. |
| **2** | 26.09.22 | Mövzu №2<br>Azərbaycan dili orfoepiya və orfoqrafiyasının formalaşma və inkişaf tarixi<br>**Qısa icmalı**<br>Müxtəlif zamanlarda Azərbaycan dilinin orfoepik normaları və ona münasibət. Azərbaycan dilinin orfoepiyasının öyrənilməsi tarixi. Azərbaycan dili orfoepiyasının hazırkı vəziyyəti. Orfoqrafiyanın dilin inkişafı ilə bağlılığı. Dildəki dəyişmələrin orfoqrafiyaya təsiri. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh. 117-132, 175-194 |
| **3** | 03.10.22 | **Mövzu №3**<br>Azərbaycan dili orfoepiyasının tarixi, inkişafı mərhələləri. Orfoepiyanın əsas qaydaları.<br>**Qısa icmalı:**<br>Fonetik qaydalar:<br>A) Azərbaycan dilindəki sait səslərin tələffüzünə aid qaydalar<br>B) Azərbaycan dilindəki samit səslərin tələffüzünə aid qaydalar<br>Leksik qaydalar:<br>A) Sözlərin yazıldığı kimi tələffüz edilməsi<br>B) Sözlərin yazılışından fərqli tələffüzü<br>Qrammatik qaydalar. Vahid tələffüz | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 117-132 |

| | | | |
|---|---|---|---|
| | | qaydaları. Sabitləşmiş tələffüz qaydaları. | |
| **4** | 10.10.22 | **Mövzu;4.** Azərbaycan dili orfoqrafiyasının əsas prinsipləri<br>**Qısa icmalı:**<br>Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətləri düzgün yazı təliminin əsası kimi. Azərbaycan dili orfoqrafiyasının prinsipləri və bunların təlimdə nəzərə alınması. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 175-194 |
| **5** | 17.10.22 | **Mövzu №5**<br>Orfoqrafiyanın prinsipləri. Fonetik, morfoloji prinsiplər və onun əsas əlaməti<br>**Qısa icmalı:**<br>Fonetik prinsip, morfoloji prinsip, tarixi-ənənəvi prinsip, şərtilik prinsipi.<br>Dil ünsiyyətinin şifahi və yazılı formaları, onların qarşılıqlı əlaqəsi. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 175-194 |
| **6** | 24.10.22 | **Mövzu № 6**<br>Azərbaycan dili orfoepiya və orfoqrafiyasının əlaqəsi<br>**Qısa icmalı:**<br>Azərbaycan dili orfoepiyası ilə orfoqrafiyasının fərqli cəhətləri və bu fərqlərin aradan qaldırılmasının əhəmiyyəti. Azərbaycan dilinin orfoepiyası ilə orfoqrafiyası arasında bağlılıq. Çağdaş dövrümüzdə Azərbaycan dil orfoepiyası ilə orfoqrafiyasının yaxınlaşması prosesi, bunun səbəbləri, əhəmiyyəti və ədəbi dilə təsiri. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh. 117-132, 175-194 |
| **7** | 31.10.22 | **Mövzu №7**<br>Söz kökünün (kök morfemlərin) orfoqrafiyası<br>**Qısa icmalı:**<br>Sözlərin bitişik yazılması qaydaları Defis işarəsindən istifadənin şərtləri Sözlərin ayrı yazılması qaydaları Sözlərin baş hərflərinin böyük yazılması | |

| | | | |
|---|---|---|---|
| **8** | 07.11.22 | **Mövzu №8**<br>Şəkilçi morfemlərin orfoqrafiyası<br>**Qısa icmalı:**<br>Şəkilçilərin ahəng qanununa tabe olub-olmaması məsələsi. Şəkilçilərin bir cür yazılması. Şəkilçilərin iki və dörd cür yazılması. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 175-202 |
| **9** | 14.11.22 | **Mövzu №9**<br>İxtisar edilən sözlərin və qısaltmaların orfoqrafiyası **.Abreviatura**<br>**Qısa icmalı:**<br>Sadə ixtisarların orfoqrafiyası. Geniş ixtisarların orfoqrafiyası (sözün yalnız baş hərfinin saxlanması, qalan hissəsinin ixtisarı). Sözün bir hissəsinin ixtisarı. Sadə ixtisarın yalnız yazıya aid olması. İxtisarlardan sonra işlənən durğu işarələri. Mürəkkəb ixtisarların orfoqrafiyası. Bitişik yazılan mürəkkəb ixtisarlar. İlk hərfi böyük yazılan mürəkkəb ixtisarlar. Mürəkkəb ixtisarların həm yazılı, həm də şifahi nitqə aidliyi. Qısaltmaların orfoqrafiya və orfoepiyası. Hərflərin adları ilə oxunan qısaltmalar. Səslərin adları ilə oxunan qısaltmalar. Bütöv sözlərlə oxunan qısaltmalar. Qısaltmaların şəkilçilərlə yazılması qaydaları. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 175-202 |
| **10** | 21.11.22 | **Mövzu №10**<br>Orfoepik norma anlayışı<br>**Qısa icmalı:**<br>Orfoepiya dilçilik elminin bir sahəsi kimi, onun obyekti və vəzifələri. Şifahi ədəbi dil və orfoepiya münasibətləri. Şifahi ədəbi dil ilə adi tələffüzün fərqi. Orfoepiya qaydalarındakı qeyri-sabitlik. Şifahi ədəbi dilə aid normalar və orfoepiya qaydaları. Orfoepik norma anlayışı. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 117-135 |
| **11** | 28.11.22 | **Mövzu №11** Nitq mədəniyyətində orfoepiyanın əhəmiyyəti<br>**Qısa icmalı:** Orfoepiya və nitq mədəniyyəti.<br>Nitq mədəniyyətində orfoepiyanın əhəmiyyəti. Orfoepik qaydaların nitqin inkişafında rolu. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 117-135 |

| | | | |
|---|---|---|---|
| **12** | 05.12.22 | **Mövzu №12** Azərbaycan dili orfoepiyasının hazırkı vəziyyəti<br>**Qısa icmalı:**<br>Azərbaycan dili tarixinin müxtəlif mərhələlərində orfoepik normalar və onlara münasibət. Azərbaycan dili orfoepiyasının öyrənilməsi tarixi. Azərbaycan dili orfoepiyasının müasir vəziyyəti. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 117-135 |
| **13** | 12.12.22 | **Mövzu №13** Sadə və mürəkkəb ixtisarların orfoqrafiyası<br>**Qısa icmalı:**<br>Rəqəmlərlə ifadə olunan qısaltmaların yazılışı. Qısaltmalarda durğu işarələrinin orfoqrafiyası. Həm ixtisar, həm də qısaltmalardan ibarət olan sözlərin orfoqrafiyası. Sözün kök hissəsinin (kök morfemlərin) sətirdən-sətrə keçirilməsi haqqında orfoqrafik qaydalar. Şəkilçili sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları. Hecası bir hərfdən ibarət olan sözlərin sətirdən-sətrə keçirilməsi ilə bağlı orfoqrafik qaydalar. Qoşasaitli və qoşasamitli sözlərin sətirdən-sətrə keçirilməsi haqqında orfoqrafik qaydalar. İxtisar və qısaltmaların sətirdən-sətrə keçirilməsi məsələsi. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 175-202 |
| **14** | 19.12.22 | **Mövzu №14.** Orfoqrafiya qaydalarının dəyişmə səbəbləri<br>**Qısa icmalı:**<br>Azərbaycan dili orfoqrafiyasının mahiyyəti və xarakteri. Orfoqrafiyanın inkişafını şərtləndirən cəhətlər. Orfoqrafiya və punktuasiya. Orfoqrafiya qaydalarının dəyişmə səbəbləri. Orfoqrafiyanın prinsipləri. Fonetik prinsip və onun əsas əlaməti – bu prinsipdə tələffüzün əsas hesab edilməsi məsələsi. Sözlərin əksəriyyətinin tələffüzündə fonetik prinsipdən istifadə. Morfoloji prinsip və onun əsas əlaməti. Səs dəyişmələrinin və variantlılığın qarşısının alınması prosesində morfoloji prinsipin rolu. Ənənəvi prinsip. Bu prinsipdən az istifadə olunması və bunun səbəbləri. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 175-202 |

| | | | |
|---|---|---|---|
| **15** | 26.12.22 | **Mövzu №15** Müasir Azərbaycan orfoqrafiyası<br>**Qısa icmalı:**<br>Azərbaycan dili orfoqrafiyasının mahiyyəti və xarakteri. Orfoqrafiyanın inkişafını şərtləndirən cəhətlər. Orfoqrafiya və punktuasiya. Orfoqrafiya qaydalarının dəyişmə səbəbləri. Orfoqrafiyanın prinsipləri. Fonetik prinsip və onun əsas əlaməti – bu prinsipdə tələffüzün əsas hesab edilməsi məsələsi. Sözlərin əksəriyyətinin tələffüzündə fonetik prinsipdən istifadə. Morfoloji prinsip və onun əsas əlaməti. Səs dəyişmələrinin və variantlılığın qarşısının alınması prosesində morfoloji prinsipin rolu. Ənənəvi prinsip. Bu prinsipdən az istifadə olunması və bunun səbəbləri. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019 səh 175-202 |
| | | **Cəmi: 30 saat** | |

**Seminar**

| № | Mövzuların adı | Saat | Tarix | Qeyd |
|---|---|---|---|---|
| 1. | Azərbaycan dili orfoepiya və orfoqrafiyasının formalaşma və inkişaf tarixi. Azərbaycan dili orfoepiyasının tarixi, inkişafı mərhələləri. Orfoepiyanın əsas qaydaları. | 2 | 20.09.22 | |
| 2. | Azərbaycan dili orfoqrafiyasının əsas prinsipləri. Fonetik, morfoloji prinsiplər və onun əsas əlaməti | 2 | 04.10.22 | |
| 3. | Azərbaycan dili orfoepiya və orfoqrafiyasının əlaqəsi | 2 | 18.10.22 | |
| 4. | Söz kökünün (kök morfemlərin) orfoqrafiyası. Şəkilçi morfemlərin orfoqrafiyası | 2 | 01.11.22 | |
| 5. | İxtisar edilən sözlərin və qısaltmaların orfoqrafiyası. Orfoepik norma anlayışı. | 2 | 15.11.22 | |
| 6. | Azərbaycan dili orfoepiyasının hazırkı vəziyyəti | 2 | 29.11.22 | |
| 7. | Sadə və mürəkkəb ixtisarların orfoqrafiyası | 2 | 13.12.22 | |
| 8. | Orfoqrafiya qaydalarının dəyişmə səbəbləri. Müasir Azərbaycan orfoqrafiyası | 1 | 27.12.22 | |
| | Cəmi: | 15 saat | | |

**Fənn müəllimi:** **dos. A.Ə.Zeynalova**